# HƏSƏNOV SƏYAVUŞ HƏSƏN OĞLU



20 yanvar 1964-cü ildə Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. Səkkizinci sinfə qədər kənd məktəbində oxuduqdan sonra təhsilini 54 saylı texniki peşə məktəbində davam etdirmiş və rəngsaz peşəsinə yiyələnmişdir. Bir neçə ay Bakı Baş Tikinti İdarəsinin nəzdindəki evtikmə kombinatında işlədikdən sonra hərbi xidmətə yola düşmüşdür. Stavropolda hərbi xidmətini başa vurduqdan sonra yenidən vaxtilə işlədiyi kombinata qayıtmışdır. Bir müddət burada işlədikdən sonra müqavilə ilə 3 il Tümenə işləməyə göndərilmişdir. 1990-cı il 20 yanvar faciəsini eşidən Səyavuş Həsənov Azərbaycana dönərək xalq hərəkatına qoşulmuşdur. Torpaqlarımızı müdafiə etmək məqsədilə könüllü olaraq Qarabağa - cəbhə bölgəsinə yollanmışdır. O, bir çox bölgələrdə - Qazaxda, Goranboyda, Gədəbəydə, Şuşada igidliklə döyüşmüş, çətin hərbi tapşırıqları layiqincə yerinə yetirmişdir. 1992-ci ilin mayında Səyavuş Daxili İşlər Nazirliyinin polis dəstəsinə yazılır. 1992-ci il iyunun 18-də Ağdərə bölgəsinə yola düşən dəstə bir çox kəndlərin geri alınmasında böyük şücaət göstərmişdir. 1992-ci il iyunun 25-də Səyavuş Həsənov Qırmızıkənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Azərbaycan Respublikası Prezidentinin 21 iyul 1992-ci il tarixli 69 saylı Fərmanı ilə Həsənov Səyavuş Həsən oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. “Şəhid, səndən başlayır Vətən” adlı film Milli Qəhrəman Həsənova həsr olunmuşdur.